**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№308/8** **22 fevral 2019-cu il**

**Sərbəst auditor Əliyev Avtandil Adıgözəl oğlunun hərəkətləri barədə**

Palatanın Hüquqi təminat və standartlaşdırma idarəsinin rəisi E.İbrahimov və Palatanın Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin sədri V.Kərimov tərəfindən Azərbaycan Respublikasının Baş Prokurorluğu Bakı şəhər Prokurorluğunun İstintaq İdarəsinin rəisi ədliyyə müşaviri Rəşad Mansurovun sərbəst auditor Əliyev Avtandil Adıgözəl oğlu barədə 2018-ci il 23 noyabr tarixli №18020633/1697 saylı təqdimatı üzrə araşdırmanın nəticəsinə dair tərtib edilmiş xidməti məktubu müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Palatanın Hüquqi təminat və standartlaşdırma idarəsinin rəisi E.İbrahimov və Palatanın Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin sədri V.Kərimov tərəfindən aparılmış araşdırmanın nəticəsi nəzərə alınsın (əlavə olunur).
2. Sərbəst auditor Əliyev Avtandil Adıgözəl oğluna sonuncu xəbərdarlıq elan edilsin və gələcəkdə bu cür hərəkətlərə yol verdiyi halda onun auditor fəaliyyətinə xitam verilməsi və auditor fəaliyyəti göstərmək üçün ona verilmiş icazənin geri alınması məsələsinə baxılması nəzərinə çatdırılsın.
3. Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palata sədrinin müavini** **Fəxrəddin İsmayılov**